*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 54-59* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.54*

# Bəxtiyar Vahabzadə yaradıcılığında rəqəmlərin simvolikası

**Şəbnəm Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail: shebnem.memmedova1981@mail.ru

**Annotasiya.** Məqalədə XX əsrin 50-ci illərindən XXI əsrin ilk onilliyi də daxil olmaqla Azərbaycan poeziyasının inkişafında əvəzsiz xidmətləri olan Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında rəqəmlərin simvolikası xüsusi mövzu olaraq nəzərdən keçirilir. Müəllifin əsərlərində şifahi xalq şeiri ənənələrindən, folklordan, mifologiyadakı nümunələrdən necə qidalanmaqla şeirlərinə necə yenilikçi ülgü vurması konkret örnəklər əsasında illüstrasiya edilir. Xüsusi olaraq vurğulanır ki, B.Vahabzadə lirikasında rəqəm əməliyyatı, bir tərəfdən mahiyyətcə dərkə söykənirsə, digər tərəfdən, simvolik xarakter daşımaqdadır. Sənətkar klassik örnəklərə söykənərkən köhnə qəliblər içində qapanıb-qalmamış, rəqəm simvolikasından öz qəliblərinə uyğun olaraq istifadə etmiş, ona fərdi kompozisiya-struktur və məna-məzmun çalarları verməklə, yaradıcılığının fəlsəfi-estetik dəyər tərəflərini ortaya qoymuşdur. Bunun nəticəsində şair zamanla məkanın həm mahiyyətinə, həm həyatın gedişatına, həm də poetik deyimin orijinallığına yeni ifadələr gətirməyə, yaradılan nümunədə fəlsəfi-psixoloji konteksti gücləndirməyə müvəffəq olmuşdur.
**Açar sözlər:** orijinal yaradıcılıq, sənətkarlıq, rəqəm simvolikası, bənzərsiz poetik lövhələr, fəlsəfi-psixoloji tutum, fikir dünyası

**Məqalə tarixçəsi:** göndərilib – 01.10.2025; qəbul edilib – 17.10.2025

# The symbolism of numbers in the creativity of Bakhtiyar Vahabzade

**Shabnam Mammadova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Folklore of ANAS
E-mail: shebnem.memmedova1981@mail.ru

**Abstract.** The article discusses the symbolism of numbers in the work of the national poet Bakhtiyar Vahabzade, who had a significant impact on the development of Azerbaijani poetry, starting from the 50s of the XX century, ending with the first decade of the XXI century. Based on the specific examples given, the poet's works illustrate how he innovatively weaves traditions of oral folk art, folklore, and mythological patterns into his poems, feeding on them in his own way. We emphasize that in Vahabzade's lyrics, numbers, if, on the one hand, are essentially based on perception, then on the other-it has a symbolic character. The artist, relying on classical patterns, did not lock himself into outdated frameworks, but used his original forms in the use of digital symbols, thereby revealing the philosophical and aesthetic value of his work, giving his own patterns an individual compositional, structural and semantic shade. As a result, the poet eventually managed to bring new expressions to the essence of space and time into his poems, reflecting the course of life. As a result, he managed to polish the originality of his poetic utterance and strengthen the philosophical and psychological mood of his writings.
**Keywords:** original creativity, craftsmanship, digital symbols, unique poetic paintings, philosophical and psychological attitude, the world of ideas

**Article history:** received – 01.10.2025; accepted − 17.10.2025

## Giriş / *Introduction*

Bəxtiyar Vahabzadə ədəbiyyata özünəməxsus mövzularla gəlmişdir. Onun əsərləri fərdi təsvir forması, süjet tamlığı və bənzərsiz poetik löhvələri ilə oxucunun gözü önündə dayanır. İlk şeiri olan "Ana və şəkil"dən başlayan şairlik yolu "Mənim dostlarım" və "Bahar" kitablarında toplanmış əsərlərlə davam etdirilməklə, mövzu əlvanlığı və kompozisiya bitkinliyi ilə seçilir. 1953-cü ildə nəşr etdirdiyi "Dostluq nəğməsi" kitabında təqdim etdiyi şeirlər əvvəllər qələmə aldıqlarından ritorik ifadə, sözçülük, mücərrədlikdən, ovxarlanmamış bədii ifadə vasitələrindən kənardır. Şair həmin dövrlərdən başlayaraq, "həyatın üzünə bəzək çəkmədən onu öz təbii və həqiqi gözəlliyi ilə əks etdirməyə səy göstərmişdir [3, s.163].

## Əsas hissə / *Main part*

Bəxtiyar Vahabzadə yaradıcılığı həm mövzu, həm də mündəricə baxımından zəngindir. Milli şeirimizin sənətkarlıq istiqamətində yetkinləşməsində onun şifahi xalq şeiri ənənələrindən, folklordan və mifologiyadan ustalıqla qidalanması mühüm rol oynamışdır. Onun yaradıcılığının orijinal tərəfi həyat hadisələrinə poetik-fəlsəfi münasibətdən doğan danılmaz keyfiyyətdir. Hər hansı mövzuya müraciət edərkən onun şeirləri mövzu, problem, deyim, nəfəs və münasibət baxımından diqqəti daha çox cəlb edir.

Bəxtiyar Vahabzadə mifologiya və folklorda olduğu kimi, öz fərdi yaradıcılığında da rəqəmlərin simvolikasından ustalıqla yararlanan, onlardan əsərlərinin ekspressiyasını gücləndirmək naminə geniş istifadə etməyi bacaran söz sərraflarındandır. Bu da təsadüfi deyildir. Məlum olduğu kimi, mifologiya folklorun və ədəbiyyatın yaranması və inkişafı üçün daim mühüm mənbə kimi xidmət etmiş və o gün də həmin missiyanı yerinə yetirməkdədir. Bütün dünya xalqlarının ədəbiyyatı kimi, Azərbaycan ədəbiyyatının da mifologiya və folklorla bağlılığı, onunla ilgili şəkildə inkişafı sənətkarlarımızın yaradıcılığına müsbət təsir etmişdir. Yazılı ədəbiyyatın folklordan qaynaqlanması heç vaxt kor-təbii xarakter daşımamış, əksinə məqsədli və yaradıcılığın mahiyyətinə xidmət edən olmuşdur. Klassik sənətkarlar – Nizami, Füzuli, Şəbüstəri, Nəvai, Cami, Aşıq Ələsgər, Molla Cümə, Qasım bəy Zakir, M.F.Axundzadə və b. rəqəmlərin simvolikasından yararlanıb müəyyən əsərlər yazsalar da, B.Vahabzadə yaradıcılığında rəqəmlərin simvolikasının belə xüsusiyyəti geniş müstəvidə hələ ki nəzərdən keçirilməmişdir.

Bəxtiyar Vahabzadə lirikasında rəqəm hesab əməliyyatı kimi görünüb dərk edilməklə bərabər, həm də simvolik mahiyyət daşımaqdadır. Məsələn, şair millətlə, vətənlə, azadlıqla, torpaqla bağlı fikirlərini kağıza köçürərkən Vətənə, onun gələcəyinə münasibətini aşağıdakı kimi çatdırır:

*Yüz-yüz itən olsun,*
*Min-min də bitən var.*
*Şükür eyləyim ki,*
*Bizlərdən həm əvvəl,*
*Həm sonra vətən var.*

Şairin burada istifadə etdiyi "yüz-yüz" və "min-min" kimi rəqəmlərin simvolikasında vətənin "itən"lərdən daha çox, "bitən"lərin əlində olacağına bitkin ifadə edilməklə, onun yaşayacağına əminlik təsdiqini tapmaqdadır. Buradakı əkilib-artma sırası sənətkar tərəfindən nəinki ritmik düzüm baxımdan, həm də semantik çalar nöqteyi-nəzərdən uğurlu hesab edilməlidir.

B.Vahabzadə yaradıcılığının başlıca xüsusiyyəti fəlsəfiliklə didaktizmin şifahi poetik ənənələrimizdən süzülüb gələn mənəviyyat məsələlərini ön plana çəkməsidir.

Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov yəqin Azərbaycan şairinin 1987-ci ildə işıq üzü görmüş “Axı, dünya fırlanır” kitabına yazdığı “Yaradıbdır inam məni, mən inamın övladıyam” adlı ön sözdə onun yaradıcılığını aşağıdakı kimi dəyərləndirmişdir: “Dövrlər dəyişir, ömür keçir, lakin həqiqi sənət bizim üçün əbədi, həmişəyaşar varlığa çevrilir...” Söhbət insandan – bütün əsrlərdə İnsan olmaq eşqi ilə yanmaqdan gedir.

B.Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən... Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır [4, s.7-8].

Millilik və bəşərilik Vahabzadənin yaradıcılığının ana xətti idi. Yəqin elə buna görə də şairin əsərlərində hər iki akkord güclü səslənir.

Hansı mövzuya müraciət etməsindən asılı olmayaraq, B.Vahabzadə həmin mövzuda özünəməxsus orijinallıq göstərir. Bu baxımdan onun əsərlərində rəqəmlərin simvolikası da mühüm rol oynayır. Şairin “Azərbaycan oğluyam”, “Zaman”, “An-min il”, “Anamın kitabı”, “Təlatüm”, “Təklik”, “Dağda şəlalə”, “İki müəllim” və s. kimi qələmə aldığı nümunələrdə müxtəlif rəqəmlərə müraciət etməklə əsərlərinin məzmun və arxitektonikasına elə bir gözəl ovqat gətirir ki, onun şeirin infrastrukturuna daxil edilməsi oxucuda qəribə hisslər yaradır. Məsələn, “An-min il”də “**bir saat** əvvəl”, “**bir insan**”, “**bir axına** qoşuldu”, “**bir an** keçib”, “**min il** aralanıbdır”; “Zaman”da “**bir ay** tamam oldu, düz **bir ay**”; “Azərbaycan oğluyam”da “**min ildir**”, “torpağımdan **bir çərək**”, “mən **bir** qədim mahnıyam”, “**iki başlı**, **bir qəlbli**”, “**bir bədənə** dönmüşəm”, “**iki vətəni** olan Azəroğlum”, “**bir ananın** oğluyuq”, “**bir arzunun** quluyuq” və s.; “Anamın kitabı”nda “... **oxudum bir** də”, “talandı **bir zaman** dövlətin, varın”, “çəkdi **üç tərəfə**, çəkdi **üç yerə**”, “bu boyda ölkəni Azərbaycanı **bir ərəb** qızına cehiz verdilər”, “**otuz il** özgəyə bərabər dedi”, “**bir ürək** kimi”; “Təlatüm”də “**yüz-yüz yalan**”, “**min gecəni** neylirəm”, “**min səsli**, **min duyğulu**”, “**yüz-yüz yalvarışlara**”, “**min-min təmənnalara**”, “**yüz illik**”, “**yüz ulduz** sizin olsun”, “mənə **bircə** gün verin”; “Təklik”də “**bir saat**”, “**yüz ilin** dərdi”, “**bir günəş** bəs edər”, “**yüz Kür** qədər”, “**min dərdi**”, “**bir nəfər**”, “Özümdən narazıyam”da “**min rəngi**, **min səsi** var”, “**min rəngli** nəğməsi var”, “bircə bundan razıyam ki”; “Dağda şəlalə kimi”də “**bir rəngi** yox”, “**bir gülü** yox”, “həyat – Cıdır düzü, **bir döyüş** meydanıdır” və s. şeirlərindəki nümunələrdə rəqəmlərin simvolikasından geniş istifadə edildiyinin şahidi oluruq [5].

Gördüyümüz kimi, B.Vahabzadənin işlətdiyi bir, iki, üç, otuz, yüz, min rəqəmləri arasında ən çox istifadə etdiyi “**bir**” rəqəmidir.

Yeri gəlmişkən qeyd edək ki, rəqəmlərlə bağlı danışmaq, fikirlərini ortaya qoyub digərlərinə çatdırmaq şifahi poeziyada, atalar sözündə, zərb-məsəllərdə, tapmacalarda, nağıllarda, epik nümunələrdə və dastanlarda, xalq, ailə-məişət həyatında və s. geniş tətbiq edilmişdir. Xalq fəlsəfəsinə bağlı olan sənətkarlar isə ona daha yaxından diqqət yetirmişlər. B.Vahabzadə isə məlum olduğu kimi, qədim şifahi ənənələrə, klassik düşüncəyə daha dərindən nüfuz edən sənətkarlardan olunmuşdur. Prof. B.Abdulla “Folklorda rəqəmlərin simvolikası” əsərində rəqəmlərin deyilişini iki yerə bölməklə birinci yerə deyilişi 24-dən ibarət olan rəqəmləri (ideoqrafik), ikinciyə isə rum rəqəmlərini aid edir. Burada söhbətin predmetinə tam şəkildə aid olmadığından biz sırf B.Vahabzadə poeziyasında rəqəmlərin simvolikasından danışmağı daha zəruri hesab edirik. Folklorda rəqəmlər hesablama vasitəsi kimi öz müqəddəsliyi və uğurluluğu ilə seçildiyi halda, həm də onların sakramental, müqəddəs əhəmiyyəti də vurğulanmaqdadır [2, s.3].

B.Vahabzadənin “Azərbaycan oğluyam” şeirində “bir” həm lap az mənasında – “torpağımdan bir çərək kimsəyə də verməırəm”, “həm tayı-bərabəri olmayan, əvəzsiz”, “mən bir qədim mahnıyam, xallarım əlvan-əlvan”, həm bütöv, tam, bölünməzlik mənasında “bir bədənə dönmüşəm”, “bir

ananın oğluyuq", "bir arzunun quluyuq", "olmuşuq bir Vətəndə" kimi işlədilməkdədir. Məsələn, müəllifin "Təlatüm" şeirində işlətdiyi "yüz" və "min" rəqəmlərinin simvolik təyinatına nəzər salaq:

*Yüz-yüz yalan vədi mən...*
*Mənə rəngsiz, boyasız*
*Bircə doğru söz verən.*
*Mən gecəni neylərəm,*
*Mənə hərəkət dolu*
*Min səsli, min duyğulu*
*Təkcə bir gündüz verən!*
*Yüz-yüz yalvarışlara,*
*Min-min təmənnalara*
*Dəyişmərəm*
*ürəkdən*
*Gələn səsi, səmri mən.* [5, s.65]

Mifologiyadan, şifahi xalq yaradıcılığından, klassik ədəbiyyatdan gələn və onlarda özünə çoxdan vətəndaşlıq hüququ qazanmış simvolikaları B.Vahabzadə özünəməxsus poetik biçimlərlə əsərlərinin ruhuna yeni şəkildə yerləşdirə bilmişdir. Onun yaradıcılığında rəqəmlərin simvolikası həm məzmunca, həm də formaca təkmilləşib bütün əsərin qanını-canını təşkil edərək zənginləşdirməkdədir.

Bu da təbiidir ki, digər yaradıcılıq növlərində olduğu kimi, poeziya sənətində də ortaya çıxan örnəklər köhnə qəlib və qaydalar içində qapanıb qalmamalı, yeniləşməlidir. B.Vahabzadə məhz bu baxımdan poeziyada öz matrisasını, qəliblərini ortaya qoyur, rəqəmlərin simvolikasından həm sərbəst, həm də başqa vəznli şeirlərində istifadəylə maraqlı assosiasiyalar yaradır. Onun bu tipli əsərlərini oxuyarkən, adama elə gəlir ki, şeirin kompozisiyası, strukturu, eləcə də məzmunu hamının bilib işlətdiyi ifadələrdən ibarətdir. Və sanki bu tipli ifadələri eləcə qiyafədə ortaya qoymaq da çətin deyildir. Lakin deyimlərdəki fəlsəfilik bunu digərləri üçün etməkdə problemlər yaradır. Dediklərimizi B.Vahabzadənin "An-min il" şeiri üzərində illüstrasiya edək:

*Bir saat əvvəl*
*duyan,*
*hiss eləyən*
*bir insan*
*Yatağında daş oldu.*
*Heçliyə doğru axan*
*Bir axına qoşuldu.*
*Anamın ölümündən*
*Bir an keçib,*
*ancaq o,*
*Daş olub insan ikən,*
*Öz-özünü danıbdır.*
*Bircə anda*
*O bizdən*
*Min il aralanıbdır.* [5, s.18-19]

Fikirlər, ifadələr aydın və sadə olduğu qədər də fəlsəfi və düşündürücüdür. Şair bir saatla min il arasındakı vaxt, zaman kəsiklərinə özünəməxsus rakurslardan yanaşmaqla "bircə an"la, "min il"i yaxınlaşdırıb, həyatla ölüm və olum arasındakı münasibətlərə öz "arşını", baxış bucağı ilə yanaşır. B.Vahabzadə, gördüyümüz kimi, şeirdə eksperiment aparmaq fikrində deyildir və yeri gəlmişkən

qeyd edək ki, onun yaradıcılığına eksperimentçiliyin özü də yaddır (Baxmayaraq ki, bəzən zəruri olduqda eksperimentçiliyi sınaqdan keçirməyin özü də münbit nəticələrə gətirə bilər). Şair zamanla addımlayır, zamanla nəfəs aldığından, yaradıcılıq onun ürəyinin döyüntüsünə çevrilir. Lakin istedadlı sənətkar heç də zamanla addımlamağı məqbul hesab etmir. O, zamanı qabaqlamağa çalışır. Tənqidçi Vaqif Yusifli demişkən,… "Zamanla Sənətkar arasında qarşılıqlı "anlaşma" baş verməlidir. Sənətkar Zamanı qabaqlaya da bilər, lakin hər bir halda o, zamanın arxasında sürünməməlidir" [6, s.41].

B.Vahabzadə zamanı əsərlərinin infrastrukturuna, obrazına daxil edərkən, o, zamanı adi müşahidəçi kimi yox, həm də həyatın mahiyyətinə, onun gedişatına təsir edə biləcək element kimi ortaya qoyur, ondan poetik deyimin uğurlu şəkildə ifadə olunması məqsədi ilə istifadə edir. Rəqəmlərin simvolikasından "Zaman" şeirində istifadə də belə mərama xidmət etməkdən ortaya gəlir:

*Bir ay tamam oldu, düz bir ay,*
*bir gün*
*Gəldim qəbiristana...*
*anamla deyil,*
*Onun başdaşıyla görüşmək üçün.*
*Düzü gözlərimə inanmadım mən,*
*Bir heyrət dalğası ötdü sinəmdən.*
*Yaxşı yadımdadır...*
*dəfn ediləndə*
*Sonuncu qəbirdi anamın qəbri.*
*Qəbirlə doludur sağ-solu indi.*
*Nədən məzarlıqda vaxt düşmür yada?*
*Demə, o burda da, burda da varmış!*
*Ölülər məskəni – məzarlıqda da*
*Zaman, qədəm-qədəm addımlayırmış!..* [5, s.20]

Məlum olduğu kimi, B.Vahabzadə lirikası üçün fəlsəfi-psixoloji üslub xarakterikdir. Rəqəmlərdən istifadə də onda bu ehtiyacdan yarana bilir. "Zaman" şeirində olduğu kimi, B.Vahabzadənin fəlsəfi-psixoloji səpkidə qələmə aldığı digər əsərlərində əksər hallarda zamanla bağlı məsələlərə müəllif axıra qədər şərh vermir. Şair onlar haqqında fikri dilə gətirməklə, məsələnin şərhini oxucunun ixtiyarına verir. Prof. A.Abasov yazırdı: "…Bəxtiyar Vahabzadənin lirikası fəlsəfi-psixoloji tutumu ilə diqqəti cəlb edir. Belə əsərlərdə yalnız hisslər, duyğular ümumiləşmir, insanın ağılı, insanın idrakı imtahana çəkilir, poetik "mən" kimi çıxış edən obrazda birləşən fəlsəfi mühakimələr oxucu ilə dialoqa girir, düşüncələr sanki sıraya düzülür, bir-birini əvəz edir" [1, s.18]. "Zaman", "An-min il", "Azərbaycan oğluyam" və s. şeirlərində sənətkarın varlığa və o dünyaya estetik münasibəti yetərincə özəl və fəlsəfidir. Məsələn, "Azərbaycan oğluyam" şeirində şair bütün aləmə torpağından bir çərək kimsəyə verməyəcəyini, bir qədim mahnı kimi xallarının oxunacağını, rəqəmlərin simvolikasından istifadəni də elə buna görə belə uğurla təkidli və inamlı şəkildə oxucuya çatdırır.

## Nəticə / *Conclusion*

B.Vahabzadənin yaradıcılığında rəqəmlərin simvolikası kifayət qədər böyük əhəmiyyətə malikdir. Onlardan sənətkarın müxtəlif məqamlarda istifadə etməsi də onun əsərlərinin bədii-fəlsəfi gücünü artırmaqdadır. Buna görə də məsələni daha geniş şəkildə təhlil etmək xeyli estetik səmərə gücünə malikdir. Odur ki, sənətkarın bu kontekstdə qələmə aldığı əsərlərinin mahiyyətinə daha dərindən nüfuz etmək uğurlu estetik-fəlsəfi nəticələrin ortaya çıxması üçün zəngin imkanlar yarada bilər.

### Ədəbiyyat / *References*


1. Abasov A. Həyat və bədii həqiqət. – Bakı: Nurlan, 2005.
2. Abdulla B. Folklorda say simvolikası. – Bakı: Elm, 2006.
3. Abdullayev C. və b. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə, II c. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.
4. Aytmatov Ç. "Yaradıbdır inam məni, mən inamın övladıyam" // Vahabzadə B. Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987.
5. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Öndər nəşriyyat, 2004.
6. Yusifli V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). – Bakı: Mütərcim, 2009.


## Символика цифр в творчестве Бахтияра Вагабзаде

**Шабнам Мамедова**
Доктор философии по филологии, доцент
Институт фольклора НАНА
E-mail: shebnem.memmedova1981@mail.ru

**Резюме.** В статье рассматривается тема символики цифр в творчестве народного поэта Бахтияра Вагабзаде, оказавшего значительное влияние на развитие азербайджанской поэзии, начиная с 50-х XX века, кончая первым десятилетием XXI века. В произведениях поэта проиллюстрировано, исходя из конкретных приведенных примеров, как он по-новаторски вплетает в свои стихи традиции устного народного творчества, фольклора, мифологических образцов, по-своему питаясь ими. Особо подчеркивается, что в лирике Вагабзаде использование цифр, если, с одной стороны, по сути опирается на восприятие, то с другой-носит символический характер. Художник, опираясь на классические образцы, не замыкался в устаревших рамках, а использовал свои оригинальные формы в использовании цифровой символики, раскрывая тем самым философско-эстетические грани особенностей своего творчества, придавая собственным образцам индивидуальный композиционно-структурный и смысловой-содержательный оттенок. В результате чего поэту удалось со временем привнести в свои стихи новые выражения в сущность пространства и времени, отражая и ход жизни. В итоге ему удалось отшлифовывать и оригинальность своего поэтического высказывания, усилить философско-психологический настрой сочинений.
**Ключевые слова:** оригинальное творчество, мастерство, цифровая символика, уникальные поэтические картины, философско-психологический настрой, мир идей